Azərbaycanda İxracın və İnvestisiyaların
Təşviqi Fondu

# İxracatçılara dəstək məqsədilə videokonfrans keçirilib

Image not readable or empty
/uploads/images/news/90341587009e2dac4ec2bb903e9a459b_600x500-resize_crop-2408.jpg

Azərbaycanda ixracatçılara dəstək və onların maariflәndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında videokonfrans keçirilib.
İqtisadiyyat Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycan-Rusiya İşgüzar Şurasının birgə təşkilatçılığı ilə keçirilən videokonfransda kənd təsərrüfatı, qida, konservləşdirilmiş məhsullar, şərabçılıq və s. sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edib.
Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin əməkdaşları videokonfrans vasitəsilə azərbaycanlı iş adamlarının suallarını cavablandırıb, ixracatçı şirkətlərə hüquqi və texniki məsələlərlə bağlı ətraflı məlumat veriblər.
Videokonfrans zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.